Davos - ideyaların yarandığı məkan

Azərbaycanın çoxillik və davamlı iştirakı qlobal əməkdaşlıq üçün yeni üfüqlər yaradır

Azərbaycanın beynəlxalq tədbirlərdə aktiv iştirakı təkcə ölkəmizin artan nüfuzunu deyil, həm də onun strateji mövqeyini və qlobal proseslərdə oynadığı rolu bir daha təsdiqləyir. Bu baxımdan, Davos İqtisadi Forumu xüsusi əhəmiyyət kəsb edir. Dünyanın ən nüfuzlu iqtisadi platformalarından biri olan bu Forum hər il dünya liderlərini, tanınmış iqtisadçıları və böyük şirkətlərin rəhbərlərini eyni məkanda bir araya gətirərək qlobal iqtisadiyyatın aktual problemlərini müzakirə etməyə imkan yaradır. Bu il 55-ci dəfə keçirilən Davos Forumu təkcə ciddi iqtisadi diskussiyalarla deyil, həm də müxtəlif sahələr üzrə innovativ həllərin təqdim edildiyi panel müzakirələrlə diqqət mərkəzindədir. Dünyanın hər yerindən gələn iştirakçılar burada müasir iqtisadi çağırışları analiz edir, qlobal problemlərin həlli yollarını axtarır. Forumun yüksək reytinqi onun müzakirə etdiyi mövzuların bəşəriyyət üçün əhəmiyyətində özünü göstərir.

Azərbaycanın Davos Forumundakı iştirakı bir ənənəyə çevrilib desək, yanılmarıq. Əgər tarixə qısa nəzər salsaq, Azərbaycanın bu nüfuzlu tədbirdə ilk iştirakının 1995-ci ilə təsadüf etdiyini görərik. O zaman ulu öndər Heydər Əliyev ilk dəfə Forumda iştirak edərək Azərbaycanın mövqeyini qətiyyətlə ifadə etdi. Bununla yanaşı, 2000-ci il yanvarın 27-30-da Prezident Heydər Əliyev Davosda "Qafqazın və Cənubi Asiyanın perspektivləri: İpək yolu və ya böyük oyun" mövzusuna həsr olunmuş sessiyada da iştirak etdi. Həmin səfərdə Ulu Öndər bildirdi ki, Dünya İqtisadi Forumu və Azərbaycan arasında əlaqələrin genişləndirilməsi ölkəmizin iqtisadi gücünün artırılması üçün geniş imkanlar açır. Ulu öndərin 2002-ci ildə Nyu-Yorkda keçirilən beynəlxalq Forumdakı çıxışı da ölkəmizin nüfuzu və ədalətin bərpası naminə olduqca önəmli idi. Azərbaycan Prezidenti beynəlxalq terrorizmlə birgə mübarizə üçün dünya ölkələrinin güclərinin birləşdirilməsinin vacibliyini vurğuladı. Beynəlxalq terrorizmin əsas mənbələrindən birinin separatizm olduğunu göstərən Ulu Öndər Qarabağ münaqişəsinin timsalında bunun çox mükəmməl şərhini böyük auditoriyalara çatdırdı.

Bu başlanğıc, əslində, ölkəmizin dünya iqtisadi sistemində yer alması üçün önəmli addım idi. Azərbaycanın bu ənənəsi Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da gücləndi. 2007-ci ildən başlayaraq Prezident İlham Əliyev hər il Davos Forumunda ölkəmizi uğurla təmsil edir. Onun çıxışları, qatıldığı panel iclaslar və verdiyi müsahibələr həm Azərbaycanın iqtisadi-siyasi nailiyyətlərini dünya ictimaiyyətinə çatdırır, həm də ölkəmizin beynəlxalq arenada nüfuzunu artırır. Bu iştirak təsadüfi deyil. Çünki Cənubi Qafqazda lider mövqedə olan Azərbaycan öz sosial-iqtisadi göstəriciləri ilə təkcə regionda deyil, dünyada da diqqət mərkəzindədir. İllər ərzində enerji, nəqliyyat və iqtisadiyyat sahələrində həyata keçirdiyi layihələr ölkəmizi qlobal iqtisadiyyatın mühüm iştirakçısına çevirib.

Azərbaycanın beynəlxalq iqtisadi platformalarda qazandığı uğurların zirvəsi, şübhəsiz ki, 2013-cü ildə Davos Forumunun regional iclasının Bakıda keçirilməsi oldu. Aprelin 12-də dünya iqtisadiyyatının ən tanınmış nümayəndələri Bakıya toplaşaraq bəşəriyyəti narahat edən mühüm iqtisadi məsələləri müzakirə etdilər. Bakı həmin gün təkcə coğrafi baxımdan deyil, həm də fikir mübadiləsi mərkəzi olaraq dünyanın diqqətini özünə cəlb etdi. Bu tədbir Azərbaycanın beynəlxalq əməkdaşlıq sahəsində etibarlı tərəfdaş kimi qəbul edildiyini bir daha sübut etdi. Belə ki, Dünya İqtisadi Forumunun "Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyi barədə strateji dialoq" mövzusunda iclası Azərbaycanın beynəlxalq nüfuzunun göstəricisi olmaqla yanaşı, onun qlobal proseslərdə aktiv iştirakının bariz nümunəsi idi. Bu möhtəşəm tədbirin Bakıda keçirilməsi, əslində, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uzaqgörən siyasətinin növbəti uğurlu nəticəsi idi. Prezidentin Dünya İqtisadi Forumunun təsisçisi və icraçı sədri, professor Klaus Şvabla 2013-cü ilin 23 yanvarında Davosda keçirilən görüş zamanı əldə olunan razılıq qısa müddətdə reallığa çevrildi. Azərbaycan liderinin strateji düşüncə tərzi və ölkəmizin artan iqtisadi potensialı bu cür mötəbər forumların keçirilməsi üçün əlverişli şərait yaratdı. Təsadüfi deyil ki, Forumun açılış mərasimində Klaus Şvab öz çıxışında Azərbaycanın ev sahibliyini yüksək qiymətləndirdi. O vurğuladı ki, Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyi ilə bağlı keçirilən bu tədbir regionun iqtisadi və strateji inkişafı baxımından böyük əhəmiyyət daşıyır. Professor Şvab Azərbaycanın son illərdə əldə etdiyi uğurları xüsusi qeyd edərək, ölkəmizin iqtisadi inkişafının nümunəvi olduğunu bildirdi. Onun sözlərinə görə, Azərbaycan iqtisadiyyatın şaxələndirilməsi, təbii resursların səmərəli idarə olunması və informasiya-kommunikasiya texnologiyaları sahəsində böyük nailiyyətlər qazanıb. Məhz bu çərçivədə əminliklə qeyd etmək olar ki, Forum Azərbaycanın dünyaya verdiyi mesajın güclü olduğunu, ölkəmizin regional və qlobal əməkdaşlıq üçün açıq və hazır olduğunu bir daha nümayiş etdirdi.

2025-ci ildə də cənab İlham Əliyevin liderliyi ilə ölkəmizin Davosda uğurlu iştirakı davam etdirilir. Məlum olduğu kimi, Prezident İlham Əliyev Dünya İqtisadi Forumunda iştirak etmək üçün yanvarın 20-də İsveçrə Konfederasiyasına səfərə gəldi. Məhz həmin tarixindən etibarən Davosda ölkə başçımız olduqca aktiv proseslərdə iştirak edir. Cənab İlham Əliyev ilk öncə Davosda CGTN (China Global Television Network) telekanalına müsahibə verib. Daha sonra ölkə başçısı qarşı tərəfin təşəbbüsü ilə "OliverWyman Group" şirkətinin Baş icraçı direktoru Nik Studer ilə görüşüb. Məlumdur ki, Azərbaycanın iqtisadi inkişafı və beynəlxalq əməkdaşlıq sahəsində artan rolu dünya biznes liderlərinin diqqətini getdikcə daha çox cəlb edir. Belə nüfuzlu şəxslərdən biri, "OliverWyman Group" şirkətinin rəhbərlərindən olan Nik Studer ölkəmizin potensialına böyük maraq göstərərək, Azərbaycanın iqtisadi transformasiya proseslərini, maliyyə və sığorta bazarlarını, eləcə də enerji sektorunda həyata keçirilən layihələri yüksək qiymətləndirib. Nik Studer görüşdə Azərbaycanın ənənəvi və "yaşıl enerji" sahələrində həyata keçirdiyi layihələrin, kənd təsərrüfatı məhsullarının ixracında qazandığı uğurların və bölgədə yeni ticarət imkanlarını əhatə edən dəyər zəncirinin lokallaşdırılması təşəbbüslərinin diqqətəlayiq olduğunu vurğulayıb. Bu cür sahələrdə Azərbaycanın uğurları, əslində, ölkəmizin iqtisadiyyatın müxtəlif istiqamətlərində davamlı inkişaf strategiyası yürütməsinin nəticəsidir. "OliverWyman Group" kimi qlobal lider bir şirkətin belə təşəbbüslərə maraq göstərməsi Azərbaycanın beynəlxalq səviyyədə nüfuzunun artmasının daha bir sübutudur. Dövlətimizin başçısı İlham Əliyev Azərbaycanın beynəlxalq əməkdaşlığa açıqlığını bir daha nümayiş etdirərək "OliverWyman Group" şirkətinin ölkəmizə göstərdiyi marağı yüksək qiymətləndirib. Prezident bu əməkdaşlığın həm Azərbaycanın müvafiq qurumlarına, həm də şirkətə böyük fayda gətirəcəyini qeyd edərək, gələcək əməkdaşlıq istiqamətlərinin inkişaf etdirilməsi məsələlərinə toxunub. Bu, Azərbaycanın xarici tərəfdaşlarla iş birliyini daha da gücləndirmək üçün atdığı ardıcıl addımların bir hissəsidir. Təsadüfi deyil ki, yanvarın 21-də də ölkə başçımız Davosda qarşı tərəfin müraciəti əsasında "The Goldman Sachs Group İnc." şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Kohen ilə görüş keçirib.

Qeyd edək ki, Davos forumu iştirakçı ölkələr arasında yeni əlaqələrin, münasibətlərin inkişafı baxımından da önəmlidir. Yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında cənab İlham Əliyev Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs ilə görüşüb. Dövlətimizin başçısı ilə bundan əvvəlki görüşlərini məmnunluqla xatırlayan Latviya Prezidenti görüşün ikitərəfli əlaqələrin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirib. Bununla yanaşı, Edqars Rinkeviçs təyyarə qəzasında həlak olanlarla bağlı Azərbaycan Prezidentinə başsağlığı verib. Prezident İlham Əliyev də öz növbəsində bugünkü görüşün əməkdaşlığımızın perspektivlərinin müzakirəsi baxımından önəmini vurğulayıb.

Həmçinin ölkə başçımız Davosda qarşı tərəfin müraciəti əsasında İraq Kürdüstan Regionunun Baş naziri Məsrur Bərzani ilə də görüşüb. İlk olaraq Məsrur Bərzani İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzaninin salamlarını dövlətimizin başçısına çatdırıb. Məsrur Bərzani vurğulayıb ki, İraq Kürdüstan Regionunun başçısı Azərbaycana səfərlərindən, o cümlədən COP zamanı ölkəmizə gəlməsindən çox məmnundur. Xüsusi vurğulanmalıdır ki, görüş zamanı Azərbaycan ilə İraq Kürdüstan Regionu arasında iqtisadi, ticari, mədəni, humanitar əlaqələrin inkişaf etdirilməsi barədə fikir mübadiləsi aparılıb. Biznes dairələrinin qarşılıqlı səfərlərinin təşkilinin, onların arasında birbaşa təmasların yaradılmasının və biznes-forumların keçirilməsinin vacibliyi qeyd olunub.

Qeyd edək ki, qarşı tərəflərin müraciəti əsasında prezident İlham Əliyevlə görüşən liderlər sırasında İsrail Dövlətinin Prezidenti İsxak Hersoq da yer alır. Görüşdə əsas olaraq Azərbaycan ilə İsrail arasında ikitərəfli münasibətlərin uğurla inkişafı xüsusi yer tutub. Söhbət zamanı iqtisadi-ticari sahədə əməkdaşlığın yaxşı səviyyədə olduğu bildirilib, hökumətlərarası birgə komissiyanın işi yüksək qiymətləndirilib. Azərbaycanlılarla yəhudilər arasında ənənəvi, tarixi dostluq münasibətlərinin mövcud olduğu vurğulanıb, ölkəmizdə digər icmaların nümayəndələri ilə yanaşı, yəhudi icmasının nümayəndələrinin də sülh, əminamanlıq və qarşılıqlı anlaşma mühitində yaşamaları üçün hərtərəfli şəraitin yaradıldığı məmnunluqla qeyd edilib.

Yeni geosiyasi düzəndə Almaniya Federativ Respublikasının Kansleri Olaf Şoltsun görüş barədə ölkə başçımıza müraciəti və bu çərçivədə baş tutan dialoq onu göstərir ki, yeni nizamda Azərbaycanın rolu daha da genişlənir. Belə ki, Davosda baş tutan görüş zamanı Azərbaycan Prezidenti ilə Olaf Şoltsun əvvəlki görüşləri və aparılmış müzakirələr məmnunluqla xatırlanıb. Danışıqlarda Azərbaycan-Almaniya münasibətlərinə eyni zamanda, Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığının inkişaf etdirilməsi perspektivlərinə dair fikir mübadiləsi aparılıb. Həmçinin Cənubi Qafqazda regional prioritet olaraq Kansler Almaniyanın Cənubi Qafqaz regionunda davamlı sülhün və sabitliyin təmin olunması istiqamətində səyləri dəstəklədiyini bildirib.

Xüsusi vurğulanmalıdır ki, ölkə liderləri ilə yanaşı aparıcı şirkət rəhbərlərinin istəyi və təşəbbüsü əsasında cənab İlham Əliyevlə görüşlərin keçirilməsi Azərbaycanda yaxın perspektivdə daha çox inkişafdan xəbər verir. Qeyd etdiyimiz kimi, "OliverWyman Group", "The Goldman Sachs Group İnc." və "DP World" kimi şirkətlərin rəhbərləri ölkə başçımızla olduqca interaktiv qaydada dialoq aparıb. Qeyd edək ki, sözügedən şirkətlər miqyas və nüfuz baxımdan olduqca böyük əhəmiyyət kəsb edirlər. Məsələn, "DP World" logistika şirkətidir və 150-dən çox millətdən olan 100 mindən çox işçidən ibarət xüsusi komandaya sahibdir.

Davos Forumu Azərbaycan üçün özünü tanıtmaq, strateji layihələrini təqdim etmək və qlobal problemlərin həlli üçün fikirlərini bölüşmək üçün əvəzsiz bir imkan yaradır. Azərbaycanın hər il artan fəallığı bir daha göstərir ki, ölkəmiz həm regionda, həm də beynəlxalq arenada müstəqil və güclü bir aktor kimi tanınır.

Nurlan ABDALOV,
"Respublika".

Respublika .- 2025.- 22 yanvar (№ 13).- S.7.